


Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 197 (21.349)

10 oktyabr 2015-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş dəyirmi masa

***Oktyabrın 9-da Heydər Əliyev Sarayında "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinə həsr olunmuş dəyirmi masa keçirilmişdir.***

Dəyirmi masanı giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Rəhman Məmmədov bildirmişdir ki, "Kitabi-Dədə Qorqud" dastanlarının öyrənilməsi, dünyada geniş tanıdılması və təbliği ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Belə ki, "Kitabi-Dədə Qorqud" dastanlarına münasibət 1970-ci illərə qədər birmənalı olmamışdır. Keçmiş Sovetlər Birliyinə xas elmi və siyasi mühitdə bu dastanların təbliği və öyrənilməsinə qadağalar qoyulmuşdur. Dastan xalqdan gizlədilir, xalqın yaddaşından silinməsinə cəhdlər göstərilirdi. Ulu öndər Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlişindən sonra "Kitabi-Dədə Qorqud" dastanlarının sistemli şəkildə tədqiqi və təbliği istiqamətində mühüm işlər görülmüşdür. 1975-ci ildə ümummilli liderin tapşırığına əsasən "Dədə Qorqud" bədii filmi çəkilmiş, 1997-ci il aprelin 20-də "Kitabi-Dədə Qorqud"un 1300 illiyi haqqında" Fərman, 2000-ci ildə isə "Bakıda Dədə Qorqud heykəlinin ucaldılması və "Dədə Qorqud dünyası" tarixi-etnoqrafik kompleksinin yaradılması" ilə bağlı Sərəncam imzalanmış, dastanın Azərbaycan xalqına və dünya ictimaiyyətinə çatdırılması, eləcə də Dədə Qorqudun adının Azərbaycanda əbədiləşdirilməsi sahəsində mühüm addımlar atılmışdır.

Vurğulanmışdır ki, ulu öndər Heydər Əliyev tərəfindən "Kitabi-Dədə Qorqud"la bağlı müəyyənləşdirilmiş dövlət siyasəti uğurla davam etdirilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında" 20 fevral 2015-ci il tarixli Sərəncamı bunun bariz nümunəsidir.



"Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da "Kitabi-Dədə Qorqud"la əlaqədar mühüm işlər görülmüş və görülməkdədir. 1999-cu ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan şəhərində "Dədə Qorqud meydanı"nın salınması haqqında" Sərəncamı ilə Naxçıvan şəhərində Dədə Qorqudun abidəsi ucaldılmış və Dədə Qorqud meydanı yaradılmışdır", – deyən Rəhman Məmmədov bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin Naxçıvan Muxtar Respublikasında qeyd edilməsi ilə bağlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında" 25 iyul 2015-ci il tarixli Sərəncamı bu sahədə aparılan işlərin davamıdır. Bu sərəncam təkcə xalqımızın müdriklik rəmzi olan bu böyük ozana deyil, bütövlükdə, milli-mənəvi dəyərlərə, ədəbi-mədəni irsə ehtiramın ifadəsi kimi mühüm əhəmiyyətli dövlət sənədidir. Sərəncam aid təşkilatlar, alimlər, yaradıcı ziyalılar qarşısında dastanla bağlı daha fundamental elmi tədqiqatların aparılması, dəyirmi masa, açıq dərs, beynəlxalq elmi konfransların keçirilməsi, ədəbi, təsviri sənət əsərlərinin, televiziya filminin hazırlanması vəzifəsini qoymuşdur. Ümumilikdə, Ali Məclis Sədrinin Sərəncamı muxtar respublika ictimaiyyətinin və yaradıcı ziyalıların bu mövzuya marağını daha da artırmışdır.

"Kitabi-Dədə Qorqud" dastanlarında təsvir edilən bir sıra tarixi hadisələrin məhz Naxçıvan ərazisində baş verdiyini qeyd edən Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri demişdir ki, Naxçıvan ərazisində "Kitabi-Dədə Qorqud"da ifadə olunan çoxsaylı yer-yurd adlarının qeydə alınması bu regionun qədim Oğuz yurdu olduğunu təsdiqləyir. Bu isə Naxçıvanda "Kitabi-Dədə Qorqud" toponimlərinin araşdırılması və tam olaraq qeydə alınması, onlar haqqında geniş tarixi-coğrafi məlumatların ictimaiyyətə təqdim edilməsi məsələsini aktuallaşdırır.

Bildirilmişdir ki, bugünkü dəyirmi masa da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamına əsasən keçirilir. Dəyirmi masada "Kitabi-Dədə Qorqud"un Naxçıvanla bağlılığı, onun ədəbiyyatımızda, gənclərin tərbiyə olunmasında rolu mövzularında müzakirələr aparılacaqdır.

"Kitabi-Dədə Qorqud" Azərbaycan xalqının mədəniyyət abidəsidir" mövzusunda məruzə ilə çıxış edən Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri, sənətşünaslıq üzrə fəlsəfə doktoru Natəvan Qədimova bildirmişdir ki, hər bir xalqın tarixində elə hadisələr, elə dəyərlər olur ki, üzərindən nə qədər zaman keçsə də, mənası, qiyməti azalmır, hər yeni nəsil ona öz dövrünün reallıqları baxımından yenidən nəzər salır, öz dövrünün meyarları mövqeyindən yenidən dəyər verir. Mədəniyyət, mənəviyyat tariximizdə belə dəyərlərdən biri, bəlkə də, ilki "Kitabi-Dədə Qorqud" eposudur ki, bu epos təkcə bədii təfəkkürümüzün möhtəşəm abidəsi deyil, həm də Azərbaycan türklərinin mifik, tarixi, coğrafi, etnoqrafik, ictimai, əxlaqi görüşlərinin ən mötəbər qaynağı, ana dilimizin ən ulu kitabı, xalqımızın mədəniyyət abidəsidir. İctimai düşüncəmizin, mədəni ənənələrimizin, milli xarakterimizin kökləri məhz "Kitabi-Dədə Qorqud"a bağlıdır. Buna görə də milli azadlıq və dövlət müstəqilliyi qazanaraq müasir dünyada öz yerini müəyyənləşdirən Azərbaycan xalqının daxili bir tələbatla yenidən "Kitabi-Dədə Qorqud"a qayıtması, bu gün alman şərqşünas-alimi Fridrix fon Dits tərəfindən üzə çıxarılaraq dünyaya tanıdılmasının və nəşr edilməsinin 200 illik yubileyinin keçirilməsi, yenidən ruhunu qopuz səsinə, ozan sözünə kökləməsi hər mənada təbii və qanunauyğundur.

Sonra AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Əbülfəz Quliyevin "Ümummilli lider Heydər Əliyev və Dədə Qorqud dünyası", Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Əliyevin "Kitabi-Dədə Qorqud" dastanının ədəbiyyatımızda yeri" mövzularında çıxışları olmuşdur.

Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının "Kitabi- Dədə Qorqud" dastanlarından hazırlanmış kompozisiyası dəyirmi masa iştirakçılarının alqışları ilə qarşılanmışdır.

Daha sonra dəyirmi masada mövzu ətrafında müzakirələr aparılmış, elmi faktlara söykənən fikirlər səsləndirilmiş, "Kitabi-Dədə Qorqud" dastanlarının qədim Naxçıvanla bağlılığı xüsusi vurğulanmışdır. Dəyirmi masa iştirakçıları "Kitabi-Dədə Qorqud"la əlaqədar imzalanan sərəncamlara görə ölkə başçısına və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə öz minnətdarlıqlarını ifadə etmişlər.

Sonda tədbir iştirakçıları mövzuya həsr olunmuş sərgiyə baxmışlar.

**Rauf ƏLİYEV**

## Günəş Elektrik Stansiyasında işlər sürətlə davam etdirilir



Muxtar respublikamızda enerji təhlükəsizliyinin tam təmin olunması istiqamətində həyata keçirilən iri layihələrdən biri də bu il Babək rayonunun Xal-xal kəndi yaxınlığında tikintisinə başlanılmış 20 meqavat gücündəki Günəş Elektrik Stansiyasıdır. Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Agentliyi ilə Belçika Krallığının "Soltech" şirkətinin bağladığı müqavilə əsasında həyata keçirilən bu iri layihə gələcəkdə Naxçıvanın enerji təminatının tamamilə yerli ehtiyatlar hesabına ödənilməsində mühüm rol oynayacaqdır. Görülən işlərlə tanış olmaq üçün tikintidə olarkən artıq layihə üzrə xeyli iş görüldüyünü, Günəş panelləri üçün dayaqların hamısının quraşdırıldığını və növbəti mərhələdəki işlərin aparıldığını müşahidə etdik. Obyektdə bildirildi ki, hazırda ikinci struktur işlərinin 65 faizi görülmüş, Günəş panellərinin isə 30 faizi quraşdırılmışdır. İstehsal ediləcək enerjinin şəbəkəyə ötürülməsi üçün lazım olan yarımstansiyaların qurulması və kabel xətlərinin çəkilməsinə də artıq başlanılmışdır. Günəş Elektrik Stansiyasında işlərin vaxtında başa çatdırılması üçün tikinti sahəsinə 30-dan artıq müxtəliftəyinatlı texnika və 400 nəfərdən çox işçi cəlb olunmuşdur. Mütəxəssislərin dediyinə görə, quraşdırma işlərinin uğurla yerinə yetirilməsi bu mühüm obyektin də vaxtında istifadəyə verilməsinə imkan verəcəkdir.

**Əli CABBAROV**

## Səyyar xidmətdən istifadə edənlərin sayı artır

2014-cü ilin yekunları və qarşıda duran vəzifələrlə bağlı cari ilin fevral ayının 9-da keçirilən müşavirədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən aidiyyəti qurumlara əhaliyə müvafiq xidmətlərin səyyar qaydada həyata keçirilməsinin təmin edilməsi haqda verilən tapşırıq doğma diyarımızda dövlət-vətəndaş münasibətlərində yeni mərhələnin başlanğıcını qoyub. Bu addım muxtar respublika sakinləri tərəfindən dövlətimizin öz vətəndaşına, bütövlükdə, insan amilinə verdiyi dəyərin təzahürü kimi qiymətləndirilir. Tapşırıqdan sonrakı müddətdə müvafiq tədbirlər həyata keçirilib, maddi-texniki baza yaradılıb. Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinə "Hyundai" markalı avtomobil verilib. Avtomobil səyyar xidmətin göstərilməsi üçün avadanlıqlarla təchiz edilib.

Ötən müddət ərzində Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin səyyar xidmət avtomobili muxtar respublikanın bir sıra kənd yaşayış məntəqələrində olub, əhaliyə yerlərdə səyyar xidmət göstərib. Nazirliyin əməkdaşı, polis baş leytenantı Seymur Tağıyevlə söhbət zamanı bildirdi ki, vətəndaşlara 5 hüquqi xidmət – ümumvətəndaş pasportunun və şəxsiyyət vəsiqəsinin verilməsi və dəyişdirilməsi, sürücülük vəsiqələrinin dəyişdirilməsi, məhkumluq haqqında və arxiv arayışlarının verilməsi, eləcə də ov silahlarının qeydiyyata alınması üzrə xidmətlər göstərmək imkanları yaradılıb. Sentyabr ayının 16-dan oktyabr ayının 5-dək səyyar xidmət avtomobili Şərur rayonunun Alışar, Mahmudkənd, Maxta, Dərəkənd, Yuxarı Aralıq, Oğuzkənd, Həmzəli, Şahbulaq, Qorçulu, Diyadin, Xanlıqlar, Vərməziyar, oktyabr ayının 6-da Kəngərli rayonunun Qıvraq yaşayış məntəqələrində olub. Müsahibim onu da diqqətə çatdırdı ki, Şərur rayonunda 108 azyaşlı uşaq, 167 böyük üçün şəxsiyyət vəsiqəsi alınmasından ötrü, ümumilikdə, 275 nəfərin sənədləri qəbul edilib. Həmin dövrdə 59 nəfərə sürücülük vəsiqələri təqdim olunub. Kəngərli rayonunun Qıvraq qəsəbəsində isə 16 şəxsiyyət vəsiqəsi üçün sənədlər qəbul edilib, 9 nəfər sürücülük vəsiqəsi alıb. Oktyabrın 7-8-də səyyar xidmət avtomobilinin xidmətindən rayonun Qarabağlar və Çalxanqala kəndlərinin sakinləri də yararlanıblar. Bu kəndlərdə şəxsiyyət vəsiqəsi hazırlanmaq üçün 27 nəfərin sənədləri qəbul edilib, 10 nəfərə sürücülük vəsiqəsi verilib. Dünən səyyar xidmət avtomobili Kəngərli rayonunun Böyükdüz kəndində olub.

## Sədərək kəndində Uşaq musiqi məktəbi üçün yeni bina inşa olunur

***Son illər muxtar respublikada digər sahələrdə olduğu kimi, mədəniyyətin inkişafı istiqamətində də ardıcıl tədbirlər həyata keçirilir.***

Şəhər, qəsəbə və kəndlərdə müasir mədəniyyət ocaqlarının, o cümlədən uşaq musiqi məktəblərinin tikilib istifadəyə verilməsi bunun ən parlaq nümunəsidir. Bu tədbirlər uşaq və yeniyetmələrin musiqi istedadının üzə çıxarılmasına və inkişaf etdirilməsinə xidmət edir.

Həyata keçirilən tədbirlərin nəticəsidir ki, Naxçıvan şəhərində, rayon mərkəzlərində və kənd yaşayış məntəqələrimizdə uşaqlara musiqi təhsili verən ünvanların sayı artmaqdadır. Növbəti belə ünvan Sədərək rayonunda yaradılır. Hazırda rayonun Sədərək kəndində Uşaq musiqi məktəbi üçün yeni bina inşa olunur. Tikinti işləri Sədərək Rayon Təsərrüfathesablı Tikinti-Quraşdırma İdarəsinin kollektivinə həvalə edilib.

İnşaat işlərinə bu ilin aprel ayından başlanılıb. İnşaatçılara yaradılan şərait hesabına ötən müddət ərzində tikinti işləri əsasən yekunlaşdırılıb. Binanın çardağı qurulub, daxilində suvaq işləri, fasad hissədə travertin üzlük daşlarla üzləmə işləri başa çatdırılıb. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan binanın həyətində abadlıq işlərinə başlanılıb. Ərazidə müasir işıqlandırma sistemləri quraşdırılacaq, yaşıllıqlar salınacaq. İnşaatçılar binanın nəzərdə tutulduğu vaxtda təhvil verilməsi üçün səy və bacarıqlarını əsirgəmirlər. Mədəniyyətimizin gələcək daşıyıcıları olan uşaqlara hərtərəfli musiqi təhsili verilməsi üçün hər cür şərait yaradılacaq binada 34 sinif otağı, orkestr zalı, musiqi nəzəriyyəsi və ədəbiyyatı kabinələri, kitabxana, iclas zalı və digər otaqlar müəllim və şagirdlərin ixtiyarına veriləcək.

**Muxtar MƏMMƏDOV**

***2002-ci il oktyabr ayının 5-də ümummilli liderimiz Heydər Əliyev oktyabr ayının 10-nun "Yanğınsöndürənlərin peşə bayramı günü" kimi qeyd olunması haqqında Sərəncam imzalamışdır. Həmin tarixdən etibarən yanğınsöndürənlər hər il oktyabrın 10-da peşə bayramlarını qeyd edirlər.***

***10 oktyabr yanğınsöndürənlərin peşə bayramıdır***

# Yanğından mühafizə tədbirləri diqqət mərkəzində saxlanılır

1969-1982-ci illərdə Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin rəhbərliyi ilə bütün sahələrdə olduğu kimi, yanğın təhlükəsizliyi orqanlarında da problemlər öz həllini tapmışdır. ***"Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır"***, – deyən ümummilli liderimiz ikinci dəfə ali hakimiyyətə qayıdışından sonra isə yanğın təhlükəsizliyi sisteminin davamlı inkişafını təmin edən ardıcıl tədbirlər görülmüşdür. Yanğından mühafizə xidmətinin maddi-texniki və normativ-hüquqi bazasının təkmilləşdirilməsi, kadr ehtiyatının yaradılması, şəxsi heyətin döyüş və peşə hazırlığının artırılması kimi vacib məsələlər öz həllini tapmışdır. 1997-ci ildə "Yanğın təhlükəsizliyi haqqında" Azərbaycan Respublikası Qanununun qəbul olunması yanğın təhlükəsizliyi və dövlət yanğın nəzarəti sisteminin təşkilinin hüquqi əsaslarını və prinsiplərini müəyyən etmişdir. Sonrakı illərdə həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlər nəticəsində yanğından mühafizə sistemi daha da təkmilləşdirilmiş, şəxsi heyətin sosial-məişət şəraiti yüksəlmiş, təminat və təchizat məsələləri öz uğurlu həllini tapmışdır.



Muxtar respublikada ilk yanğın komandası 1927-ci il iyunun 15-də yaradılmışdır. Səkkiz nəfərdən ibarət yanğın komandasının şəxsi heyətinin sayı sonrakı illərdə artırılaraq 14 nəfərə çatdırılmış və yanğın maşınları ilə təchiz edilmişdir. Naxçıvan şəhərində yaradılmış peşəkar yanğın hissəsi 1981-ci ildə hərbiləşdirilmiş yanğın hissəsinə çevrilmiş, rayonlarda peşəkar yanğın hissələri fəaliyyət göstərməyə başlamışdır. Müstəqillik illərindən başlayaraq Naxçıvan Muxtar Respublikasında da yanğından etibarlı mühafizə sistemi formalaşdırılmış, yanğınların qarşısının alınması və nəticələrinin aradan qaldırılması işi diqqət mərkəzində saxlanılmışdır.

Ölkəmizin iqtisadi inkişafına dayaq olan, əhalinin əmlakını qoruyan yanğın təhlükəsizliyi orqanları bu gün Naxçıvan Muxtar Respublikasında diqqət və qayğı ilə əhatə olunmuş, maddi-texniki bazanın gücləndirilməsi, şəxsi heyətin maddi rifahının yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində müvafiq qərarlar qəbul edilmişdir. Belə ki, 2002-ci ildə Sədərək rayonunda yeni ştat vahidləri verilməklə hərbiləşdirilmiş yanğın hissəsi yaradılmış və onun fəaliyyətinin təmin edilməsi üçün inzibati bina və texniki qaraj tikilmiş, 2003-cü ildə isə Ordubad və Şahbuz rayonlarında peşəkar yanğın hissələri hərbiləşdirilmiş yanğın hissələrinə çevrilmişdir. 2004-cü ildə Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinə idarə statusu verilmiş, onun yerli qurumları xidmətdən şöbəyə çevrilmiş, Kəngərli rayonunda yeni ştat vahidləri verilməklə hərbiləşdirilmiş yanğın hissəsi yaradılmışdır.

2006-cı ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarının Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin tabeliyinə verilməsi ilə yanğın təhlükəsizliyi orqanlarının fəaliyyətində yeni mərhələnin başlanğıcı qoyulmuşdur. Həmin dövrdən başlayaraq Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin inzibati binaları əsaslı təmir edilmiş, Kəngərli, Şahbuz, Ordubad, Şərur, Babək və Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələri üçün yeni inzibati binalar və texniki qarajlar tikilərək istifadəyə verilmişdir. Naxçıvan şəhəri, Şərur, Babək və Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi şöbələrinin yanğınsöndürmə avtomobilləri müasirtipli radiostansiyalarla təmin olunmuş, nazirlik və onun struktur qurumları ilə etibarlı rabitə əlaqəsi yaradılmışdır.

Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarının maddi-texniki bazasının möhkəmləndirilməsi və müasirləşdirilməsi



üçün də lazımi tədbirlər görülür. Ötən dövrdə bu məqsədlə kifayət qədər texnika, texniki vasitə, cihaz və avadanlıqlar, eləcə də xüsusi geyimlər alınmışdır. Son 10 ildə 25 ən müasir yanğınsöndürmə avtomobili, 5 əməliyyat minik avtomobili, müxtəlif diametrli yanğın şlanqları, 17 dəst kompüter, xidməti və gündəlik geyim formaları və əşya-əmlaklar alınaraq əməkdaşların istifadəsinə verilmişdir. Güclü maddi-texniki baza işin nümunəvi təşkilinə şərait yaratmış, muxtar respublikada baş verən yanğın hadisələri zamanı insanlara və qonşu tikililərə ziyan dəyməsinin qarşısı alınmışdır.

Göstərilən dövlət qayğısına əməli işi ilə cavab verən yanğınsöndürənlər muxtar respublikada yanğından mühafizə tədbirlərinin gücləndirilməsini diqqət mərkəzində saxlayırlar. Bu məqsədlə maarifləndirmə işinə də xüsusi diqqət yetirilir. Əməkdaşlar mənzillərdə yoxlamalar keçirir, əhali arasında yanğın təhlükəsizliyi barədə söhbətlər aparırlar. 2015-ci ilin 9 ayı ərzində yanğın təhlükəsizliyinin təmin edilməsi, yanğına qarşı vəziyyətin yaxşılaşdırılması məqsədilə 2140 obyektdə əsaslı və 2205 obyektdə nəzəri yoxlamalar, 77 min 881 şəxsi yaşayış evində, 327 dövlət yaşayış binasında yanğın-texniki müayinələr aparılmış, 19 min 498 vətəndaşa yaddaş kitabçası təqdim edilmiş, insanlar yanğına qarşı təlimatlandırılmışdır. İnsanların kütləvi toplaşdığı mədəni-maarif müəssisələrində, təhlükə potensiallı və yanğın-partlayış təhlükəli obyektlərdə yanğın-texniki müayinələr aparılmış, işçilərin yanğına qarşı maarifləndirilməsi diqqət mərkəzində saxlanılmışdır. Bu dövrdə mənzillərdə və fərdi yaşayış evlərində elektrik enerjisindən istifadə



zamanı yanğın təhlükəsi yarada biləcək halların qarşısının alınması məqsədilə reydlər keçirilmiş, 372 halda yanğın təhlükəsi törədən elektrik xəttinin, 317 halda qeyri-standart qaz xəttinin və plitələrinin istismarı dayandırılmışdır. Həmçinin əkin sahələrində məhsul yığımında iştirak edən 145 kombayn texniki baxışdan keçirilmiş və odsöndürmə vasitələri ilə tam təmin edildikdən sonra sahələrə buraxılmışdır. Biçin dövründə taxıl zəmilərində əməkdaşlar tərəfindən patrul xidməti təşkil edilmiş, baş verə biləcək yanğın hadisələrinə çevik reaksiyanın verilməsi üçün yanğın avtomobillərinin növbətçiliyi təşkil edilmişdir. Aparılan profilaktik işlərin sayəsində taxıl zəmilərində yanğın hadisələri qeydə alınmamışdır.

Ötən müddət ərzində yanğın təhlükəsizliyi orqanlarında xidmətin təşkili, döyüş və peşə hazırlığı üzrə beynəlxalq təcrübənin öyrənilməsi, texniki təchizat və təminatın müasir standartlara uyğunlaşdırılması istiqamətində tədbirlərin həyata keçirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Yanğın təhlükəsizliyi orqanlarının ixtisaslı kadrlarla komplektləşdirilməsi, gənc kadrların hazırlanması məqsədilə, ümumilikdə, 107 nəfər Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına, Ukrayna və Belarus respublikalarının akademiyalarına, həmçinin Bakı Yanğın Texniki Kollecinə təhsil almağa göndərilmişdir. Onlardan 88 nəfəri təhsillərini başa vuraraq bu gün Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarında xidmətlərini layiqincə davam etdirirlər.

Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və onun yerli qurumlarının fəaliyyətinin normal təşkili daim diqqət mərkəzində saxlanılır, yanğınsöndürənlərin əməyi qiymətləndirilir. Son illər yanğın təhlükəsizliyi orqanlarının əməkdaşlarından 2-si "Dövlət qulluğunda fərqləndiyinə görə" medalı, 21-i isə "Rəşadətli əməyə görə" nişanı ilə təltif edilmişdir.

***Muxtar respublika yanğınsöndürənləri bundan sonra da öz fəaliyyətlərini müasir dövrün tələbləri səviyyəsində quracaq, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması, yanğın təhlükəsizliyinin etibarlı təmin olunması üçün səylərini əsirgəməyəcəklər.***

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

# Nəqliyyat xidmətinin səviyyəsi yüksəldilir



***Muxtar respublikada nəqliyyat xidmətinin təşkili və səmərəliliyin artırılması diqqət mərkəzində saxlanılır. 2015-ci ilin sentyabr ayı ərzində əhaliyə göstərilən avtonəqliyyat xidmətinin səviyyəsinin yüksəldilməsi istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.***

Belə ki, "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkşafı üzrə Proqram"a əsasən, şəhərdaxili nəqliyyatda işləyən avtobusların beynəlxalq standartlara cavab verən müasir avtobuslarla əvəz olunması işləri davam etdirilmişdir. Ötən ay 7 yeni avtobus gətirilərək Naxçıvan şəhərdaxili nəqliyyatında istifadəyə verilmişdir. Hesabat dövründə təhlükəsiz və rahat idarəetmənin təşkili məqsədilə avtobuslara gündəlik texniki baxış keçirilmiş, nasaz hissələri təmir olunmuşdur. Nəticədə, muxtar respublikada sərnişindaşıma xidmətinin səviyyəsi daha da yüksəldilmiş, fəaliyyətdə olan 138 marşrut xəttində 303 avtobusla şəhər, rayon mərkəzləri və kəndlərin hər biri marşrutla təmin edilmiş, 487 taksi vasitəsilə əhalinin bu nəqliyyat növünə olan tələbatı tamamilə ödənilmişdir.

İran İslam Respublikasının ərazisindən keçməklə Naxçıvan-Bakı və Bakı-Naxçıvan istiqamətlərində hərəkət edən marşrut üzrə xidmətin nümunəvi təşkili diqqət mərkəzində saxlanılmışdır. Bu dövr ərzində Naxçıvan-Bakı istiqamətində 125 reys həyata keçirilmiş, 5 min 533 sərnişin daşınmışdır. Əks istiqamət üzrə isə xidmətdən 5 min 426 nəfər istifadə etmişdir.

Sərnişindaşıma ilə məşğul olan nəqliyyat vasitələrinin nəzarətdə saxlanması xidmətin keyfiyyətinin yüksəldilməsini şərtləndirən mühüm amillərdəndir. Ötən ay ərzində nazirlik tərəfindən marşrut avtobuslarının təmizliyinə, sürücülərin geyim formasına və hərəkət qrafikinə nəzarət edilmiş, xüsusilə axşam saatlarında şəhərdaxili marşrutların işinin daha səmərəli qurulması, avtobusların marşrut qrafikinə uyğun hərəkəti diqqət mərkəzində saxlanılmışdır. Bundan başqa, ay ərzində 12 fiziki və hüquqi şəxs lisenziyaya cəlb edilmiş, 13 avtonəqliyyat vasitəsinə lisenziya kartları verilmişdir. Qanunsuz sahibkarlıqla məşğul olan avtonəqliyyat vasitələri də aşkarlanaraq aid təşkilatlarla birlikdə onların sürücüləri barəsində müvafiq tədbirlər görülmüş, yükdaşıma fəaliyyəti ilə məşğul olan fiziki və hüquqi şəxslərin avtonəqliyyat vasitələrinə baxış keçirilmiş, 209 nəqliyyat vasitəsinə "İcazə blankı" verilmişdir.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

***"Naxçıvanqaz" İstehsalat Birliyi tərəfindən təbii qaz təchizatının etibarlılığının və səmərəliliyinin artırılması istiqamətində ardıcıl tədbirlər görülür.***

# "Naxçıvanqaz" İstehsalat Birliyi işini günün tələblərinə uyğun qurur

İstehlakçıların fasiləsiz və təhlükəsiz təbii qazla təmin edilməsi məqsədilə birliyin müvafiq tədbirlər planına əsasən, sentyabr ayı ərzində də qarşıda duran vəzifələr uğurla yerinə yetirilmişdir. Ötən dövrdə ərazilər üzrə bütün sistem texniki baxışdan keçirilmiş, yararsız vəziyyətdə olan qaz sayğacları istismardan çıxarılaraq yenisi ilə əvəz olunmuş, Naxçıvan şəhərində 2912 smartkarttipli qaz sayğacı quraşdırılmışdır. Xətlərdə təzyiqin normada saxlanılması üzrə gündüz və gecə rejimləri müəyyənləşdirilmiş, sutka ərzində rejim və sərflərin qeydiyyatı aparılmışdır.

Sentyabr ayı ərzində yeni tikilmiş 112 evə qaz xətləri çəkilmişdir. Birliyə tabe şəhər, rayon Qaz İstismarı idarələrinin qəza dispetçer xidmətlərinə təbii qaz istehlakçılarından 1447 çağırış daxil olmuş, qaz təsərrüfatı şəbəkəsində 2021 halda sızma aşkarlanmış və aradan qaldırılmışdır. Həmçinin yeraltı qaz xətlərində korroziyaya uğrayan hissələrin yeni borularla əvəz olunması işləri də davam etdirilmişdir. Ümumilikdə, fərdi və ümumi yaşayış evlərinin qazlaşdırılması, korroziyaya uğramış boruların dəyişdirilməsi, yol-tikinti işlərinin aparılması və digər abadlaşdırma işləri ilə əlaqədar olaraq 17 min 543 paqonometr uzunluğunda boru xətti çəkilmişdir.

Ötən ay təbii qazdan səmərəli istifadə qaydalarının izah olunması, təhlükəsizlik tədbirlərinə əməl edilməsi və israfçılıq hallarına yol verilməməsi məqsədilə əhali arasında maarifləndirici söhbətlər də aparılmışdır.

***"Naxçıvanqaz" İstehsalat Birliyinin mətbuat xidməti***

# Naxçıvan abidələri



*Nadir geoloji quruluş, qədim dini memarlıq abidələri Naxçıvan Muxtar Respublikasında həyat və mədəniyyətin başlanğıcı haqqında məlumat verir. Azərbaycanın qərb regionu olan Naxçıvanda təbii gözəlliklər və dərin kökləri olan vətənpərvərlik mövcuddur.*

Sədərək kəndinin şimalında qayalığın içərisində Əjdahan mağarası arxeoloji abidəsi aşkarlanmışdır. Mağaranın uzunluğu 12, eni 3-3,5, hündürlüyü isə 2-2,5 metrdir. Mağaranın üzərinə top mərmisi düşdüyündən onun tavanının bir qismi dağılaraq giriş hissəni tutmuşdur. Tavanı isə ocaq yanmasından qaralmışdır. Mağaranın ön tərəfi kiçik meydan şəklindədir. Tədqiqatlar zamanı mağaranın girişindən erkən orta əsrlərə aid keramika məmulatları aşkar olunmuşdur. Araşdırmalar Əjdahan qalasından müəyyən müddət yaşayış məskəni kimi istifadə edildiyini və Naxçıvanın bu hissəsində qədim mədəniyyət izlərinin olduğunu təsdiq edir. Bu yaşayış yerini III-VI əsrlərə aid etmək olar.

Şahbuz rayonunun Qonaqgörməz yaylağının yaxınlığında təbiət abidəsi sayılan və təbii qaya parçalarından ibarət olan insan fiqurunu xatırladan Gəlin qayası abidəsi vardır. Xalq arasında olan rəvayətə




görə, bu abidə özünü düşmənlərdən qorumağa çalışan namuslu bir qadının daşlaşmış heykəlidir. Abidə Azərbaycan xalqının daşa dönmə ilə bağlı inanclarını əks etdirir. Əfsanənin yaranma tarixini eramızdan əvvəl III-II minilliyə aid etmək olar.

Şərur rayonunun Havuş kəndində təbii abidə olan Tamaşalı yaşayış məskəni vardır. Bu gözoxşayan təbii abidə səmaya doğru istiqamətlənən sıldırımlı qayalardan ibarətdir. Yerli əhalinin fikrincə, bu abidə barədə müxtəlif rəvayətlər vardır. Lakin abidə Ermənistanla sərhəddə olduğu üçün alimlər tərəfindən bu ərazidə müvafiq tədqiqatlar aparılmayıb. VII-VIII əsrlərə aid olan abidənin yaxınlığında qədim və orta əsrlərə aid yaşayış yerləri və qəbiristanlıq vardır.

Ordubad rayonunun Unus və Pəzməri kəndlərinin arasında da təbiət abidəsi olan Gəlin qayası vardır. Dağın ən yüksək zirvəsində yerləşən abidə insan fiquruna oxşayır. Tarixən dağları, qayaları əfsanələşdirən Azərbaycan xalqı bu abidəni də müqəddəsləşdirmişdir.

Bu gün Naxçıvanda formalaşan bəşəriyyət tarixi beynəlxalq ekspertlərin diqqətinə layiqdir və onlar öz tədqiqatları ilə Naxçıvan, eləcə də Xəzər regionunun qədim və orta əsr tarixinə işıq salmağa davam edə bilərlər.

**Peter TASE**
**07.10.2015**
**Amerika Birləşmiş Ştatlarının “Foreign Policy News” və “Eurasia Review” qəzetləri**

# Muxtar respublikanın mədəniyyət müəssisələrində qarşıya qoyulan vəzifələr yerinə yetirilir

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi sentyabr ayında öz fəaliyyətini iş planına uyğun qurmuşdur. Bu dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarından, qəbul edilmiş dövlət proqramlarından irəli gələn vəzifələrin icrası vaxtlı-vaxtında həyata keçirilmişdir.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında” 2009-cu il 7 fevral tarixli Sərəncamına uyğun olaraq muxtar respublikada xalq yaradıcılığının yaşadılması, milli dəyərlərin qorunması, təbliği və gələcək nəsillərə çatdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Mədəniyyət və Turizm Nazirliyi tərəfindən sərəncamın icrası daim nəzarətdə saxlanılır, muxtar respublikanın rayonlarında “Xalq yaradıcılığı günləri” keçirilir. Sentyabr ayında Kəngərli rayonunun Qarabağlar, Şərur rayonunun Axura, Babək rayonunun Aşağı Buzqov və Şahbuz rayonunun Aşağı Qışlaq kəndlərində “Xalq yaradıcılığı günləri” keçirilmiş, hər bölgənin özünəməxsus xalq yaradıcılığı nümunələri, milli dəyərlər sistemi nümayiş olunmuşdur.

Yeni tədris ilinin başlanması mədəniyyət və turizm şöbələrinin, eləcə də uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin kollektivləri qarşısında mühüm vəzifələr qoyur. 2015-2016-cı tədris ilində uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə şagird qəbulu ilə bağlı sentyabrın 1-dən 10-dək müvafiq ixtisaslar üzrə imtahanlar keçirilmişdir. Bundan başqa, mədəniyyət və turizm şöbələrinin müdirlərinin və muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin rəhbərlərinin iştirakı ilə keçirilən müşavirədə yeni tədris ilinə hazırlıqla bağlı tapşırıqlar verilmiş, musiqi məktəblərində tədrisin səviyyəsinin yüksəldilməsi, müəllimlərin dərslərə məsuliyyətinin artırılması məqsədilə vahid tədris proqramları hazırlanmışdır.

Ötən ay əlamətdar günlərin qeyd olunması da diqqət mərkəzində saxlanılmışdır. Sentyabrın 18-də Milli Musiqi Gününə həsr olunmuş tədbir keçirilmiş, muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin kənd mərkəzlərində və Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Penitensiar Xidmətinin Qarışıq Tipli Cəzaçəkmə Müəssisəsində, Mədəniyyət və Turizm şöbələrinin isə rayon mərkəzlərində konsertləri təşkil edilmişdir.

Muxtar respublikada mədəniyyət və incəsənət xadimlərinin yubileylərinin qeyd olunması ənənəhalını almışdır. Milli musiqi mədəniyyətimizin inkişafında böyük xidmətlər göstərən bəstəkarların, musiqişünasların, ifaçıların xatirəsinə hər zaman yüksək qiymət verilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Vasif Adıgözəlovun 80 illik yubileyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər



Planı”nın təsdiq edilməsi haqqında 2015-ci il 18 fevral tarixli Sərəncamına əsasən görkəmli bəstəkarın yubileyi muxtar respublikada geniş qeyd olunur. Ötən ay Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında muxtar respublikanın mədəniyyət müəssisələri kollektivlərinin, həmçinin ali və orta ixtisas təhsili müəssisələrində müvafiq ixtisaslar üzrə təhsil alan tələbələrin iştirakı ilə Vasif Adıgözəlovun 80 illik yubileyinə həsr olunmuş tədbir keçirilmiş, bəstəkarın yaradıcılıq yoluna nəzər salınmış, Naxçıvan Dövlət Filarmoniyasının musiqi kollektivlərinin ifasında yubilyarın əsərlərindən ibarət nömrələr səsləndirilmişdir. Eyni zamanda Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Əziz Şərifin 120 illik yubileyi ilə bağlı Şərur və Culfa rayon mərkəzləşdirilmiş kitabxana sistemlərində və onların filiallarında oxucu konfransları təşkil edilmişdir.

Hər bir sahə üzrə işin səmərəli təşkili, ilk növbədə, ixtisaslı kadr hazırlığından asılıdır. Muxtar respublikanın mədəniyyət və turizm müəssisələrinin də peşəkar kadrlara olan tələbatının ödənilməsi bu gün qarşıda duran əsas vəzifələrdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2015-ci il 27 iyul tarixli “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında” Sərəncamı bu baxımdan mühüm əhəmiyyətə malik olan dövlət sənədidir. Sərəncamın icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi tərəfindən tədbirlər planı hazırlanmış, ali və orta ixtisas təhsili müəssisələrində keçiləcək açıq dərslərin, kitab müzakirələrinin, Azərbaycan mədəniyyətinin və turizminin təbliğinə dair oxunacaq mühazirələrin qrafikləri təsdiq edilmişdir. Nazirliyin Turizm şöbəsinin əməkdaşları Naxçıvan Dövlət Universitetində və “Naxçıvan” Universitetində Turizm və otelçilik ixtisası üzrə təhsil alan tələbələrlə görüşlər keçirmişlər. Həmçinin ötən ay muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərində ixtisaslı kadrlarla iş aparılması, onların təcrübələrinin artırılması, tədris prosesində yeni metod və üsullardan istifadənin və qabaqcıl təcrübənin öyrənilməsi məqsədilə müvafiq tədbirlər görülmüş, ustad dərslərin təşkilinə diqqət artırılmışdır. Ümumilikdə, ötən ay nazirlik tərəfindən 59 nəfər işə qəbul olunmuşdur ki, onlardan da 40-ı muxtar respublikanın uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinə müəllim vəzifəsinə götürülmüşdür. Müəllimlərdən 25-i muxtar respublikanın rayon və kəndlərindəki musiqi məktəblərində dərs deyəcəklər.

Muzeylər tariximizin, maddi-mədəni irsimizin saxlanc yeridir. İnsanların muzeylərə cəlbi, onlara qədim tariximiz, mədəniyyətimiz, milli dəyərlərimiz, ədəbiyyatımız, görkəmli şəxsiyyətlərimiz haqqında dolğun məlumat verilməsi qarşıda duran başlıca vəzifələrdəndir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 19 dekabr tarixli “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” Sərəncamına uyğun olaraq, sentyabr ayında muxtar respublikanın dövlət orqanları işçilərinin muzeylərə kollektiv gedişi təmin edilmiş, ümumilikdə, 40-dan artıq kollektiv muzeylərdə olmuşdur. Bu dövrdə muzey əməkdaşlarının peşəkarlıq səviyyəsinin yüksəldilməsi də diqqət mərkəzində saxlanılmış, Naxçıvan Dövlət Tarix Muzeyində muzey bələdçilərinin seminar-ekskursiyası keçirilmiş, Naxçıvan Dövlət Xalça Muzeyinin, “Xan Sarayı” Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinin, Şərur və Culfa Rayon Tarix-Diyarşünaslıq muzeylərinin bələdçiləri Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Gənclər Fondunun təşkil etdiyi xarici dil kurslarına cəlb edilmişdir. Həmçinin Heydər Əliyev Muzeyində Naxçıvan Tibb Kollecinin tələbələri üçün “Müstəqil Azərbaycan dövləti Heydər Əliyevin şah əsəridir” mövzusunda və Naxçıvan Dövlət Tarix Muzeyində Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin tələbələri üçün açıq dərslər keçilmişdir.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi gənclərin vətənpərvərlik tərbiyəsinin təşkili istiqamətində də müvafiq tədbirlər həyata keçirir. Sentyabr ayında Naxçıvan Qarnizonunun Zabitlər Evində Heydər Əliyev adına Hərbi Liseyin kursantları üçün “Azərbaycan mədəniyyətinin inkişaf tarixi” mövzusunda seminar, o cümlədən kursantların iştirakı ilə Heydər Əliyev Muzeyində “Heydər Əliyev və Azərbaycan ordusu” və Ədəbiyyat Muzeyində “Bəxtiyar Vahabzadə yaradıcılığında vətənpərvərlik” mövzularında açıq dərslər keçilmişdir. Bu tədbirlər çərçivəsində Naxçıvan Muxtar Respublika Kitabxanasında “Qədim Azərbaycan diyarı” və Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasında “Vətən mənə oğul desə” başlıqlı sərgilər təşkil edilmiş, oxucu konfransları keçirilmişdir.

“Kitabi-Dədə Qorqud”un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyi ilə əlaqədar Naxçıvan Muxtar Respublika Kitabxanasında, Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasında, rayon mərkəzləşdirilmiş kitabxana sistemlərində sərgilər təşkil edilmiş, Naxçıvan şəhər, Culfa, Sədərək və Şərur Rayon Mədəniyyət və Turizm şöbələrinin təşkilatçılığı ilə dəyirmi masalar keçirilmişdir. Naxçıvan Muxtar Respublika Kitabxanasında “Kitabi-Dədə Qorqud – xalqın yaratdığı və yaşatdığı tarix” mövzusunda keçirilən konfrans maraqla qarşılanmışdır.

İstər qədim tarixi abidələri, zəngin mədəni irsi və təbiəti, istərsə də müasir sosial-iqtisadi inkişaf Naxçıvanda turizmin inkişafı üçün geniş imkanlar açır. Muxtar respublikaya gələn turistlərin sayı ilbəil artır. Bütün bunlar da turizm sahəsində həyata keçirilən tədbirlərin davamlı olmasını zəruri edir. Sentyabr ayında Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi bu sahədə işlərin hərtərəfli təşkilinə diqqət yetirmiş, muxtar respublikada fəaliyyət göstərən turizm firmalarının, mehmanxana və mehmanxanatipli obyektlərin lisenziya şərtlərinə riayət edilməsinə nəzarət olunmuşdur. Turizm İnformasiya Mərkəzinin saytının yenidən işlənməsinə başlanılmış, Naxçıvanın turizm potensialının təbliği məqsədilə reklam informasiya materiallarının hazırlanması işi yekunlaşdırılmışdır. Naxçıvan Dövlət Televiziyası ilə birgə “Naxçıvan mətbəxi” verilişinin sentyabr ayı üçün növbəti sayı hazırlanaraq efirə verilmiş, Naxçıvan Muxtar Respublikası İqtisadiyyat və Sənaye Nazirliyinin keçirdiyi iaşə obyektlərinin işçiləri üçün üçgünlük kursda “Azərbaycan kulinariyası” mövzusunda mühazirə oxunmuş və film nümayiş etdirilmişdir. Sentyabrın 23-də isə Ümumdünya Turizm Günü ilə bağlı tarix-diyarşünaslıq muzeylərində silsilə tədbirlər keçirilmiş, muzeylərə ekskursiyalar təşkil edilmiş, sərgilər açılmış, folklor qruplarının konserti təşkil olunmuşdur. Bu dövrdə payız-qış mövsümünə hazırlıq da diqqət mərkəzində saxlanılmış, bununla bağlı nazirlikdə müşavirə keçirilmişdir.

*Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin kollektivi bundan sonra da qarşıya qoyulan vəzifələrin icrasını diqqət mərkəzində saxlayacaqdır.*

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbuat xidməti***

# Seçki marafonu

## 1 noyabr 2015-ci il Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər günüdür

Parlament seçkiləri - 2015

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər muxtar respublikada 7 seçki dairəsi üzrə, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilər isə 45 seçki dairəsi üzrə keçiriləcəkdir.**

**Seçkiqabağı təşviqat vətəndaşların və siyasi partiyaların seçiciləri seçkilərdə iştiraka, bu və ya digər namizədlərin lehinə səs verməyə (səs verməməyə) çağıran və ya çağırmaq məqsədi daşıyan fəaliyyətidir.**

* * *

**Seçkiqabağı təşviqat aparmaq hüququna aşağıdakılar malikdirlər:**

● Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə deputat seçkilərində iştirak etmək üçün qeydə alınmış namizədlər;

● Azərbaycan Respublikasının Milli Məclisinə və Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə deputat seçkilərində iştirak etmək üçün namizədi qeydə alınmış siyasi partiyalar, siyasi partiyaların blokları.

**Seçkiqabağı təşviqat aşağıdakı üsullarla aparıla bilər:**

● kütləvi informasiya vasitələri ilə;

● kütləvi tədbirlərin (yığıncaqlar və vətəndaşlarla görüşlər, kütləvi müzakirələr, söhbətlər və sair) keçirilməsi yolu ilə;

● çap olunmuş, audivizual və digər təşviqat materiallarının buraxılması və yayılması yolu ilə;

● qanunla qadağan edilməyən digər üsullarla.

Kütləvi informasiya vasitələri ilə seçkiqabağı təşviqat açıq müzakirələr, dəyirmi masalar, mətbuat konfransları, müsahibələr, çıxışlar, siyasi reklamlar, televiziya və radio verilişləri, videofilmlər formasında və qanunla qadağan edilməyən digər formalarda həyata keçirilir.

**Qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku seçkiqabağı təşviqatın forma və üsullarını müstəqil müəyyənləşdirir.**

**Seçkiqabağı təşviqatın aparılması, seçkiqabağı hər hansı təşviqat materiallarının yayılması aşağıdakılara qadağan edilir:**

● xarici dövlətlərə və xarici hüquqi şəxslərə;

● xarici vətəndaşlara;

● vətəndaşlığı olmayan şəxslərə;

● 18 yaşına çatmamış vətəndaşlara;

● beynəlxalq təşkilatlara və beynəlxalq ictimai hərəkatlara;

● dövlət hakimiyyəti orqanlarına, bələdiyyə qurumlarına və onların idarə və təşkilatlarına;

● hərbi hissələrə;

● xeyriyyə təşkilatlarına, dini birliklərə, idarələrə və təşkilatlara;

● aşağıdakı məlumatlardan hər hansı birini göstərməyən anonim ianə köçürənlərə (**vətəndaş üçün** – soyadını, adını, atasının adını, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyasını, nömrəsini, verilmə tarixini, yaşayış yerinin ünvanını, doğum tarixini; **hüquqi şəxs üçün** – vergi ödəyicisinin eyniləşdirmə nömrəsini, adını, qeydiyyat tarixini, bank rekvizitlərini, nizamnamə kapitalında dövlət və ya bələdiyyə payının olmasını, olduğu halda miqdarını, nizamnamə kapitalında xarici kapitalın pay miqdarını göstərməyənlərə və ya qeyri-düzgün göstərənlərə).

● seçki komissiyalarına, seçki komissiyasının üzvlərinə və digər vəzifəli şəxslərinə.

**Seçkiqabağı təşviqat üçün müəyyən edilmiş qaydalara riayət edilməsinə nəzarəti Mərkəzi Seçki Komissiyası həyata keçirir.**

**Seçkiqabağı təşviqat Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 2015-ci il oktyabr ayının 9-da, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə seçkilərdə isə 2015-ci il oktyabr ayının 20-də başlanır və oktyabr ayının 31-i saat 8[00]-də dayandırılır.**

* * *

**Səsvermə günü və ondan əvvəlki gün hər hansı seçkiqabağı təşviqat aparmaq QADAĞANDIR.**

**Seçki məntəqəsi otaqlarının daxilində və xaricində yerləşdirilmiş seçkiqabağı təşviqat materialları səsvermə günü yığışdırılır.**

Teleradio verilişləri təşkilatlarının və ya dövri nəşrlərin redaksiyalarının təsisçiləri dövlət orqanları, təşkilatları, idarələri olduqda və ya onlar dövlət büdcəsindən maliyyələşdirilirsə, bu teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları qeydə alınmış namizədlərə və siyasi partiyalara seçkiqabağı proqramlarını təbliğ etməkdən ötrü bərabər şərait yaradırlar.

Teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları təşviqat fəaliyyətində tamamilə iştirak etmədikdə formasından asılı olmayaraq, hər hansı materialın nəşrindən və ya efir vaxtının verilməsindən imtina edə bilərlər.

Kütləvi informasiya vasitələri seçkilərlə bağlı ictimai rəy sorğusunun nəticələrini dərc etdikdə rəy sorğusu keçirən təşkilatları, onun keçirilməsi vaxtını, dəqiq ifadə edilmiş sualları, sorğuda iştirak edənlərin sayını bildirməlidir.

**Səsvermə gününə 24 saat qalmış ictimai rəy sorğusu nəticələrinin, seçkilərin nəticələri barədə proqnozların kütləvi informasiya vasitələrində dərc edilməsinə yol verilmir.**

* * *

**Kütləvi informasiya vasitələrində seçkiqabağı təşviqatın ödənişli əsaslarla aparılmasının ümumi şərtləri**

● Azərbaycan Respublikası Seçki Məcəlləsinin 77.1, 77.4-cü və "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 64.1-ci maddəsində göstərilən teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları qeydə alınmış namizədlərə, namizədi qeydə alınmış siyasi partiyalara, siyasi partiya bloklarına, referendum üzrə təşviqat qruplarına müqavilə əsasında dəyəri ödənilən efir vaxtı və dövri nəşrlərdə yer ayırmaq hüququna malikdirlər.

● Ödənişin məbləği və şərtləri müvafiq olaraq qeydə alınmış bütün namizədlər, siyasi partiyalar, siyasi partiya blokları, referendum üzrə təşviqat qrupları üçün eyni olmalıdır.

● Müvafiq teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları efir vaxtı verilməsi və dövri nəşrlərdə yer ayrılmasının mümkünlüyü barədə qeydə alınmış namizədlərə, siyasi partiyalara, siyasi partiya bloklarına, referendum üzrə təşviqat qruplarına, Mərkəzi Seçki Komissiyasına, dairə seçki komissiyasına göndərilən bildirişlə yanaşı, ödənişin məbləği barədə məlumatı da seçkilərin təyin edilməsi haqqında qərarın rəsmi dərcindən ən geci 50 gün ərzində dərc etməlidirlər.

● Özəl teleradio verilişləri təşkilatları və dövri nəşrlər seçkiqabağı təşviqat materiallarını dərc etməkdən imtina edə bilərlər. Özəl teleradio verilişləri təşkilatları və dövri nəşrlər seçkiqabağı təbliğatla bağlı materialların dərc edilməsinə məcbur edilə bilməzlər. Bu cür materiallar dərc edilirsə, dərc edilmə şərtləri bütün namizədlər, siyasi partiyalar və referendum üzrə təşviqat qrupları üçün eyni olmalıdır.

**Müvafiq seçki komissiyasının sorğusu əsasında qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları ödənişli efir vaxtının və dövri nəşrdə yerin dəyərinin ödənilməsinə razılığı təsdiq edən sənədləri təqdim etməyə borcludurlar.**

*Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası*

## Fəsil dəyişikliyinin səbəb olduğu xəstəliklərdən övladlarımızı necə qoruyaq?

*Havalar sərinləyir, ağaclar yarpaqlarını yavaş-yavaş tökməyə başlayır, hər gün yamyaşıl gördüyümüz bağ-bağçalar artıq yerini saralmış otlara, qurumuş çiçəklərə verir. Bir sözlə, qızıl payız gəlişini hiss etdirir. Bu fəsildə insan orqanizmində bir sıra dəyişikliklər baş verir. Xüsusilə uşaqlarda xroniki xəstəliklər özünü daha qabarıq göstərir.*

Bəs övladlarımızı fəsil dəyişikliyi ilə gələn xəstəliklərdən necə qorumalıyıq? Bu haqda ətraflı məlumat əldə etmək üçün Babək rayonundakı Nehrəm Kənd Sahə Xəstəxanasının baş həkimi Hüseyn Niftəliyevlə həmsöhbət olduq.

"Payız fəslində havanın dəyişkən olması insanlarda temperatura uyğunlaşmanı çətinləşdirdiyi üçün bir sıra xəstəliklər meydana gəlir. Bu xəstəliklərin ən çox yayılanı qripdir. Eyni zamanda yay mövsümünün quraqlıq keçməsi mədə-bağırsaq, bronxit, bronxial-astma kimi xəstəliklərin kəskinləşməsinə zəmin yaradır", – deyən Hüseyn həkim bildirdi ki, uşaqlarda immunitet zəifləməsi, ilk növbədə, onların mövsümlə bağlı yayılan viruslara tez yoluxmasına səbəb olur. Ona görə də valideynlər uşaqlarda immun sistemini gücləndirən qidalara üstünlük verməlidirlər. Təcrübə göstərir ki, immuniteti güclü olan uşaqlar qışda az xəstələnir, hətta müxtəlif qrip viruslarının yayıldığı məkanda belə, orqanizmləri həmin virusu yaxın buraxmır. İmmunitetin zəifləməsi uşaqların təkcə hava ilə yayılan viruslara yoluxmasına yox, onlarda boydan geriqalma hallarına, iştah zəifliyi, qanazlığı və sair xəstəliklərə də səbəb olur.

"Südverən analar yoluxucu xəstəliklərdən uzaq dayanmalıdırlar", – deyən pediatr bu cür xəstəliklərə yoluxan anaların körpələrinə süd verən zaman qoruyucu maskalar taxmasını körpənin təhlükəsizliyi üçün daha məqsədəuyğun sayır.

Havanın temperaturunun aşağı düşməsi nəticəsində tez-tez qrip və digər respirator xəstəliklərə məruz qalan uşaqlara həkim tərəfindən immun sistemini gücləndirən dərman preparatları təyin edilsə də, pediatrlar uşaqların vitamini həb şəklində qəbul etməsini, uşağın immunitetinin dərman vasitələri ilə gücləndirilməsini məsləhət görmürlər.

Hüseyn həkim onu da diqqətə çatdırdı ki, uşaqlarda immun sisteminin təbii vasitələrlə gücləndirilməsinə nail olmaq lazımdır. Bəzi vitaminlərin çatışmazlığı azyaşlılarda immun sisteminin aşağı düşməsinə, hətta müəyyən xəstəliklərə gətirib çıxarır. Orqanizmdə immun sistemini qüvvətləndirən vitaminlərdən birincisi C vitaminidir. C vitamini soyuqdəymə ilə əlaqədar olan xəstəliklərə qarşı mübarizədə orqanizmə xeyli kömək edir. Bu vitaminin qəbul edilməsi orqanizmin sağlamasına kömək edir, respirator xəstəliyin daha ağır formalara keçməsinin qarşısını alır. C vitamini ilə zəngin əsas qidalar sitrus meyvələri, həmərsin, kələm, pomidor, qırmızı istiotdur. Bununla yanaşı, qanazlığı da uşaqlarda immun sisteminin zəifləməsinə gətirib çıxarır. Uşaqda qanazlığı yarandıqda onun qidasında süd, yumurta, mal əti, qaraciyərə daha çox yer ayırmaq lazımdır. Bütün bunlara əməl etsək, onda qış mövsümündə bu cür yoluxmalar minimuma endirilmiş olar.

"Bəzən valideynlər müəyyən səbəblərdən uşaqlarının xəstəliyinə ev şəraitində müalicə axtarırlar", – deyən müsahibim bildirdi ki, bu cür məsuliyyətsiz yanaşma bəzən pnevmoniya kimi ciddi fəsadlara səbəb ola bilər. Onun sözlərinə görə, hər hansı bir xəstəlik müşahidə olunduqda mütləq həkimə müraciət etmək lazımdır. Eləcə də həkim məsləhəti olmadan dərmanların qəbulu qəti şəkildə təhlükəlidir.

✍ **Arzu ABDULLAYEV**

## Boksçumuz dünya çempionatına qələbə ilə başlayıb

*Oktyabrın 6-da Qətərin paytaxtı Dohada boks üzrə dünya çempionatına start verilib.*

Bu il keçirilən dünya çempionatında əvvəlki yarışlardan fərqli olaraq dünyanın ən güclüləri mübarizə aparırlar. Birinci Avropa Oyunlarında 1-3-cü, Bolqarıstanda keçirilən qitə çempionatında isə 1-6-cı yeri tutanlar Qətərdə təşkil olunan yarışa vəsiqə qazanıblar. Bu dünya çempionatı Rio-de Janeyro Olimpiadasına lisenziya xarakterlidir. Qətərdəki dünya çempionatından 23 boksçu olimpiadaya lisenziya qazanacaq. 49, 52 və 81 kiloqram çəki dərəcələrində 1-2-ci, 56, 60, 64, 69, 75 kiloqram çəki dərəcələrində 1-3-cü, 91 və 91+ kiloqram çəki dərəcələrində isə yalnız qaliblər olimpiadaya vəsiqə əldə edəcəklər.

73 ölkənin 260 boksçusunun qüvvəsini sınadığı çempionatda Azərbaycan millisi də çıxış edir. Sevindirici haldır ki, Dohaya millimizin heyətində Naxçıvan boks məktəbinin yetirməsi Tayfur Əliyev də yollanıb. 56 kiloqram çəki dərəcəsində rinqə çıxan dünya çempionatının debütantı Tayfur Əliyev mübarizəyə ikinci mərhələdən (1/8 finaldan) başlayıb. Boksçumuz monqolustanlı İderhuu Enkhjarqnillə üz-üzə gəlib. Hər üç raundda qalib gələn boksçumuz növbəti mərhələyə vəsiqə qazanıb. Tayfur Əliyev 1/4 finalda irlandiyalı Maykl Konlanla qarşılaşacaq.

Azərbaycan dünya çempionatında 9 boksçu ilə təmsil olunur ki, onların da arasında ən gənci məhz Tayfur Əliyevdir.

## Estafet yarışı keçirilib

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları arasında keçirilən estafet yarışına yekun vurulub. Naxçıvan Muxtar Respublika Stadionunda təşkil edilən yarışda nazirliyin 14 komandası çıxış edib. Hər komandanın heyətində 4 atletin mübarizə apardığı yarışda idmançılar, ümumilikdə, 4000 metr məsafəni qət etməli olublar. Finiş xəttinə hamıdan tez çatan Daxili Qoşunların Naxçıvan Əlahiddə Əməliyyat Briqadasının komandası birinci yerə layiq görülüb. Daxili İşlər Nazirliyinin xüsusi təyinatlı əməliyyat taqımının komandası ikinci, Babək Rayon Polis Şöbəsinin komandası isə üçüncü olublar.

Sonda qaliblərə diplomlar təqdim olunub.

## İdmançımız peşəkar kikboksinq turnirinin qalibi olub

Ötən həftə Ağdam rayonunun Quzanlı qəsəbəsindəki Olimpiya-İdman Kompleksində ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunan kişilər arasında peşəkar kikboksinq turnirinin qalibləri arasında turnir keçirilib. Bu yarışda Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının yetirməsi Ruslan Musayev də iştirak edib. 57 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız bütün rəqiblərinə qalib gələrək turnirin baş mükafatını qazanıb.

Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının digər yetirməsi Nail Hüseynov da uğur əldə edib. Kikboksinqçimiz Ukraynada keçirilən ölkə çempionatında çıxış edib və qalib adını qazanıb.

Sonda idmançılarımıza təşkilatçılar tərəfindən diplom, medal və kubok təqdim olunub.

✍ **Ceyhun MƏMMƏDOV**

*İtmişdir*

Kəngərli rayonunun Yeni Kərki kənd sakini İsmayılov Mahir İslam oğlunun adına olan 001 inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Məmmədova Xuraman İmamqulu qızının adına olan Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi itdiyindən etibarsız sayılır.

* * *

Məmmədova Gülnur Qorxmaz qızının adına olan əmək kitabçası itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 4020. Sifariş № 765